

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 93 (24.230)

25 may 2023-cü il, cümə axşamı

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik

## Səlahiyyətli nümayəndə Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı və Qida Sənayesi sərgisində iştirak edən Naxçıvan heyəti ilə görüşüb



Mayın 24-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Bakıda keçirilən 16-cı Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı və 28-ci Azərbaycan Beynəlxalq Qida Sənayesi sərgilərində iştirak edən Kənd Təsərrüfatı və İqtisadiyyat nazirliklərinin əməkdaşları, sahibkarlar və ailə təsərrüfatçıları ilə görüşüb.

Fuad Nəcəfli iştirakçıları sərgilərdə fəal iştirakına və "Orqanik Naxçıvan" brendini uğurla təbliğ etdiklərinə görə təbrik edib, sərgidə iştirak edən ölkə Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Naxçıvan stendinə xüsusi maraq göstərməsini qürurverici hal kimi dəyərləndirib.

Məlumat verilib ki, ümumilikdə, 31 ölkədən 479 şirkətin iştirak etdiyi, 9 ölkənin isə milli stendlərlə təmsil olunduğu sərgilərdə ilk dəfə Naxçıvan Muxtar Respublikasının ayrıca pavilyonu yaradılıb və "Orqanik Naxçıvan" brendi təqdim olunub. Naxçıvanın təbii məhsullarının böyük maraqla qarşılandığı sərgi muxtar respublikada aqrar sahəyə investisiyaların artırılmasında stimul kimi dəyərləndirilib.

Görüşdə Naxçıvanda kənd təsərrüfatı və istehsal sahələrində prioritetlərin müəyyənləşdirildiyi və ilkin islahatların aparıldığı vurğulanıb. Qeyd edilib ki, iqlim dəyişikliyi və digər təsirlər fonunda yeni innovasiyaların tətbiqi şərtdir. Yaxın günlərdə aqrar sahədə institutlaşdırma işləri aparılacaq, Naxçıvanın orqanik məhsullarının sertifikatlaşdırılması, bazarda öz yerini alması üçün ciddi marketinq işlərinin aparılması və ixracın dəstəklənməsi məqsədilə ardıcıl işlər görüləcək.

Görüşdə sahibkarların və ailə təsərrüfatçılarının təklifləri dinlənilib, onlar "Orqanik Naxçıvan" brendi ilə kooperativ iştiraka dəvət edilib.

**"Şərq qapısı"**

## "SABAH" İncəsənət Festivalının rəsmi açılış mərasimi olub

*24-26 may tarixlərdə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin "SABAH" qrupunun təşkilatçılığı, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyinin, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin, Naxçıvan Muxtar Respublikasının Təhsil və Mədəniyyət nazirliklərinin xüsusi dəstəyi ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin "SABAH" qruplarının İncəsənət Festivalı təşkil edilib.*



Tədbir iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib önünə əklil qoyublar. Heydər Əliyev Muzeyində qonaqlara görkəmli dövlət xadiminin zəngin həyat yolu və fəaliyyəti barədə ətraflı məlumat verilib. Naxçıvan Dövlət Milli Dram Teatrının qarşısında incəsənətin müvafiq sahələri üzrə ustad dərslər keçilib. Pantomim səhnələri, qılınc döyüşləri, estrada musiqisi, şeir və rəqs nömrələri göstərilib, rəssamlıq, xalçaçılıq, keramika, qobelen nümunələri, memarlıq layihələri nümayiş olunub. Heydər Əliyev Sarayının foyesində "SABAH" qruplarının tələbələrinin əl işlərindən ibarət sərgiyə baxış olub.







Tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən "Tarixə çevrilən ömür" adlı videoçarx təqdim edilib.

Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini Firudin Qurbanov Ümummilli Lider Heydər Əliyevin həyatı, ictimai-siyasi fəaliyyəti haqqında geniş çıxış edib. Qeyd edilib ki, Ulu Öndər Heydər Əliyev ölkəyə rəhbərliyinin hər iki dövründə təhsil sahəsinə xüsusi diqqət və qayğı ilə yanaşıb. Görkəmli dövlət xadimi Naxçıvana rəhbərlik etdiyi dövrdə təhsil sahəsini diqqətində saxlayıb, müstəqilliyə gedən yolumuz məhz buradan başlanıb. Ümummilli Liderin yolunu hər sahədə uğurla davam etdirən Ali Baş Komandan, Prezident cənab İlham Əliyev 44 günlük şanlı Vətən müharibəsində xalqımıza böyük Zəfəri bəxş edib.

Bütün sahələrdə öz biliyi, bacarığı, dünyagörüşü ilə təkrarolunmaz dahi şəxsiyyətin doğulduğu Naxçıvan diyarında olmaqdan qürur hissləri keçirdiyini deyən Firudin Qurbanov festivalın Ulu Öndərin 100 illik yubileyinə həsr olunduğunu, nümayiş olunan incəsənət və mədəniyyət nümunələrinin görkəmli dövlət xadiminin həyatı və fəaliyyəti ilə yaxından bağlı olduğunu diqqətə çatdırıb.

Bildirilib ki, 2014-2015-ci tədris ilində yaradılan "SABAH" qrupları istedadı, bacarığı, dünyagörüşü ilə seçilən tələbələri özündə birləşdirir. Hazırda Elm və Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən 11 ali məktəbdə bu qruplar yaradılıb. Bu gün "SABAH" qrupları yüksək nailiyyətlərə malikdir və onlar milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasında, təbliğində mühüm rol oynayır.

Firudin Qurbanov çıxışının sonunda festival iştirakçılarını təbrik edib, yaradılan şəraitə görə Naxçıvan rəhbərliyinə təşəkkürünü bildirib.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov qeyd edib ki, "Heydər Əliyev İli" çərçivəsində muxtar respublikada keçirilən çoxsaylı tədbirlər içərisində "SABAH" İncəsənət Festivalı xüsusilə seçilir. Bu festivalın Naxçıvanda, Ümummilli Liderin doğma vətənində keçirilməsi xüsusi qürurvericidir, təqdirəlayiqdir.

Qeyd edilib ki, Ulu Öndər Heydər Əliyev fəaliyyəti dövründə təhsil müəssisələrinin infrastrukturunun genişləndirilməsi, maddi və tədris bazasının təkmilləşdirilməsi istiqamətində mühüm işlər həyata keçirilib, milli kadrların hazırlanması prosesinə xüsusi diqqət yetirilib. Ümummilli Liderin uzaqgörənliyi ilə hazırlanmış milli kadrlar müstəqillik qazandıqdan sonra ölkənin inkişafına öz töhfələrini verib. Bu ənənə ölkə başçısı tərəfindən davam etdirilir. İxtisaslı kadr yetişdirilməsi istiqamətində görülən tədbirlər sırasında "SABAH" qrupları layihəsi xüsusi rol oynayır. Bu qruplar təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində yeni bir ənənənin başlanğıcını qoyub. Bu festival çərçivəsində keçirilən tədbirlər tələbələri ixtisaslı kadrlar kimi yetişdirmənin bir nümunəsidir.

Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev çıxışında qeyd edib ki, Ümummilli Lider Heydər Əliyev Azərbaycan gəncliyinin təhsilli, savadlı, bacarıqlı olması istiqamətində böyük işlər görüb. Gənclərin ölkənin sabahı, gələcəyi üçün istedadlı kadr kimi formalaşmasına böyük qayğı göstərib. Dörd dəfə Naxçıvan Dövlət Universitetində olan görkəmli dövlət xadimi onun inkişafına xüsusi qayğı göstərib. Ulu Öndərin universitetin fəxri doktoru olması qarşımızda böyük məsuliyyət yaradır.

Bildirilib ki, bu gün Ulu Öndər tərəfindən əsası qoyulmuş təhsil islahatlarının məntiqi davamı "SABAH" layihəsi ilə uğurla inkişaf edir, bu proqramlar milli proqram kimi böyük əhəmiyyətə malikdir. Rektor gələcəkdə bu layihələrin geniş şəkildə ali məktəbləri əhatə edəcəyinə, formalaşan gənclərin müstəqil Azərbaycanın inkişafında xüsusi xidmətləri olacağına əminliyini bildirib.

Tədbir "SABAH" İncəsənət Festivalının rəsmi açılış konserti ilə davam edib. Bakı Musiqi Akademiyasının "SABAH" qruplarının tələbələrinin, Naxçıvan Dövlət Filarmoniyasının Kamera Orkestrinin ifaları tədbirə şən əhvali-ruhiyyə qatıb.

**Güntac ŞAHMƏMMƏDLİ**

# Təhsilimizin və incəsənətimizin bugünkü inkişafının əsasında Heydər Əliyev ideyaları dayanır

## *Ulu Öndərin doğma yurdunda keçirilən incəsənət festivalı möhtəşəm anlarla yadda qaldı*




*Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin "SABAH" qruplarının təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikasında Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan ikigünlük incəsənət festivalı təşkil edilib. Festival təşkilatçılarından bir neçəsinin təəssüratlarını qəzetimizin oxucularına təqdim edirik:*

***Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini Firudin Qurbanov:*** – Bilirsiniz ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamına əsasən 2023-cü il ölkəmizdə "Heydər Əliyev İli" kimi qeyd olunmaqdadır. Respublikamızın hər yerində keçirilən bu əlamətdar günlər, həmçinin Azərbaycanla həmrəy olan bir çox qardaş ölkədə də davam edir. Bu gün dahi siyasi xadim, Ümummilli Lider Heydər Əliyevin doğulduğu Naxçıvan torpağında maraqlı və yaddaqalan tədbiri qeyd etməkdəyik. Belə ki, muxtar respublikada "SABAH" qruplarının iştirakı ilə ikigünlük incəsənətyönümlü tədbir keçirilir ki, burada da əsas məqsəd xüsusi istedada malik gənclərimizi ictimaiyyətə təqdim etməkdir. Diqqətə çatdırım ki, "SABAH" qrupları ölkəmizdə gənc kadrların iştirakına görə ən aparıcı yerdə dayanır. Əsas məqsədi tələbələrin intellektual və yaradıcılıq potensialının inkişafı və ixtisaslar üzrə kompetensiyalara tam yiyələnməsini, ali təhsilin keyfiyyətinin yüksəldilməsini və tədrisin təşkilində mütərəqqi forma və metodların tətbiqini təmin etməkdir. Bu festivalın Naxçıvanda keçirilməsi də əlamətdardır. Bugünkü uğurların belə təmtəraqlı təqdimatının keçirilməsi, düşünürəm ki, həqiqətən, təqdirəlayiqdir. Çünki bu gün hər bir azərbaycanlı bilir ki, müasir respublikamızın, dövlətimizin memarı və qurucusu Heydər Əliyev özünün bütün həyat və fəaliyyətini Azərbaycan xalqının və respublikamızın hərtərəfli inkişafına, çiçəklənməsinə, Azərbaycançılıq ideyasının milli şüurda qərarlaşmasına, dövlət quruculuğuna, müstəqil dövlətçiliyin möhkəmlənməsi və yüksəlişinə, Azərbaycan elminin və təhsilinin müasir inkişafına, dünyada tanınmasına həsr etmiş, bu sahədə misilsiz xidmətlər göstərmişdir. İnanırıq ki, Azərbaycan gəncliyi istər təhsil və mədəniyyət, istərsə də incəsənət və digər sahələrdə daim Vətənimizin milli mənafelərini qoruyacaq, onu daha da irəliyə aparacaqdır.

***Eldar Qocayev – Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi "SABAH" İcra Komitəsinin rəhbəri:*** – "SABAH" qruplarının ənənəvi olaraq incəsənət festivalı keçirilir. Bu, incəsənətin müxtəlif sahələrini əhatə edən, tələbələrin nailiyyətlərinin ictimaiyyətə çatdırılması, onun təbliğ olunması, eyni zamanda müasir incəsənət sahəsində təhsilimizin hansı səviyyəyə gəlib çatmasını bir növ göstərir və haradasa ictimaiyyət qarşısında bir hesabat verməkdir. Amma bu il keçirilən incəsənət festivalı xüsusi məna daşıyır. Çünki bu, Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunub. Burada nümayiş etdirilən incəsənətin müxtəlif növlərinə aid nümunələr çıxışda, təqdimatda birbaşa və ya dolayı şəkildə Ulu Öndərin həyat və fəaliyyəti ilə bağlıdır. Buna görə də Naxçıvanı – o məkanı, o şəhəri , o qədim diyarı seçdik ki, orada Heydər Əliyev dünyaya gəlib, uşaqlığını keçirib, tarixin mühüm mərhələlərində burada fəaliyyət göstərib, işləyibdir. Böyük bir heyətlə – 100-dən artıq iştirakçı ilə bura gəlmişik. Festivalda müxtəlif ali təhsil ocaqlarından tələbələr, akademik, rəhbər heyət iştirak edir. Burada "SABAH" qrupları olan 4 universitet – Bakı Musiqi Akademiyası, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası, Azərbaycan Memarlıq və İnşaat Universitetinin tələbələri iştirak edirlər. İstəyirik ki, bu iki günü Naxçıvan ictimaiyyəti ilə qaynayıb-qarışaq. Ümumiyyətlə, musiqi, rəqs, teatr, pantomimika, şeir, klassik musiqiyə geniş yer verilib. Festivalın birinci günü Heydər Əliyev Sarayında, əsasən, simfonik və klassik musiqi üzərində qurulan konsert, həmçinin tələbələrin çox böyük sərgisi keçirildi. Növbəti gün "Arşın mal alan" tamaşasını təqdim edəcəyik. Bu da yeni quruluşdadır və ilk dəfə Naxçıvanda təqdim olunacaq. Gün ərzində Naxçıvan əhalisi üçün təqdimatlar, müxtəlif



küçə nümayişləri göstəriləcək. Mən əminəm ki, "SABAH" qrupları ilə Naxçıvan ictimaiyyəti arasındakı əlaqə daha da genişlənəcək və belə tədbirlərin təşkili adi hala çevriləcək. Bu, hər mənada, yaxşı nəticələrə gətirib çıxaracaqdır.

Eldar Qocayev Naxçıvan haqqında təəssüratlarını bölüşərək əlavə etdi: – Naxçıvan bu gün dünyanın inkişaf etmiş şəhərlərindən heç də geri qalmır. Uzun illər əvvəl, tələbə ikən gəlmişdim bura. Bu gün isə sanki fərqli planetə düşmüşəm. Bu məni qəlbən çox sevindirir. Yeganə arzum növbəti dəfə Naxçıvana quru yolla gəlməkdir. Bu hər bir naxçıvanlının ürəyincə olar.

***Sevinc Əliyeva – "SABAH" İcra Komitəsi rəhbərinin tələbələrlə iş üzrə müavini:*** – "SABAH"qrupları 2014-2015-ci tədris ilindən etibarən fəaliyyət göstərir. Əsasən, təhsildə tədrisin keyfiyyətinin yüksəldilməsi yeni və fərdi mühitin yaradılması savadlı və bacarıqlı tələbələrin yetişdirilməsi məqsədilə yaradılmış layihədir. Bu layihə çərçivəsində artıq 2018-ci ildən etibarən "SABAH" İncəsənət Festivalı təşkil olunur. İncəsənət festivalı 3 il ard-arda İçərişəhərdə keçirilmişdir. Keçən il biz festivalı Gəncə şəhərində reallaşdırdıq. Həm tələbələrimiz Dram Teatrda tamaşa ilə çıxış etdilər, həm də filarmoniyada konsert proqramı verdilər. Builki incəsənət festivalı Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuşdur. Biz konsert proqramını təşkil etdikdə çalışmışıq ki, Heydər Əliyevin sevdiyi mahnıları, bəstəkarları konsert proqramımıza daxil edək. İlk dəfədir ki, Azərbaycanda "Arşın mal alan" xorun müşayiəti ilə tamaşaçılara təqdim



olunacaq. Naxçıvanda keçirilməsi, təbii ki, simvolik xarakter daşıyır. Bu bizim festivalın mahiyyəti ilə üst-üstə düşür. Elm və Təhsil Nazirliyinin "SABAH" qruplarının tələbələrilə birlikdə ilk dəfədir ki, Naxçıvana səfərimiz baş tutur. Həqiqətən, Naxçıvan səliqəli, təmiz şəkildə qurulmuşdur. Heydər Əliyev Sarayı bizdə xoş təəssürat yaratdı, möhtəşəmdir, həqiqətən. İnanıram ki, konsert Naxçıvan əhalisinin çox xoşuna gəldi.

***Mehriban Zəki – Azərbaycan Respublikasının Xalq artisti, "SABAH" qruplarının Aktyor sənəti fənni üzrə müəllimi:*** – Açığı bu gün səhər gəlmişəm və Naxçıvana səfərim ilk dəfədir, təəssüratlarım o qədər də geniş deyil. Amma şəhərə girəndə buranın təmizliyi və gözəlliyi, güllər, çiçəklər məni valeh etdi. Hətta xanımlara dedim ki, şəhər o qədər təmizdir ki, bura mənə Monakonu xatırladı. Sonra biz dahi rəhbərimiz Heydər Əliyevin abidəsini və muzeyini ziyarət etdik. Buradakı teatrı görmək istədim. Teatrın məkanı o qədər xoşuma gəldi ki, çox möhtəşəmdir. Gözəl insanlarla tanış oldum.

Elm və Təhsil Nazirliyinin "SABAH" qrupları 2014-2015-ci tədris ilində yaranıb və artıq 3 ildir ki, hər dəfə Azərbaycanın bir məkanında incəsənət festivalı təşkil olunur. Budəfəki səfərimiz Naxçıvana oldu və Ulu Öndər Heydər Əliyevin 100 illiyi ilə bağlı gözəl tarixlə üst-üstə düşdü. Tələbələrimiz ilə bir neçə layihə, konsert proqramları təqdim etdik. Ən əsası Üzeyir Hacıbəyovun "Arşın mal alan" tamaşasını bu səfər üçün Bakı Musiqi Akademiyası ilə müştərək hazırladıq. Düşünürəm ki, maraqlı və qeyri-adi bir tandem yaranır. Bizim tamaşamızın quruluşu da klassik quruluşdan tam fərqlidir, çünki gənclər oynayır. Ümumiyyətlə, tamaşamız sevgi haqqındadır. Çünki yaşından asılı olmayaraq, hər kəsin sevgiyə ehtiyacı var. Sosial statusundan asılı olmayaraq, bütün insanların sevgiyə ehtiyacı var. Sevgi deyəndə, eşq deyəndə böyük anlamda Vətənə sevgi, anaya, insanlara sevgi başa düşülməlidir. Bizim o içimizdəki böyük Vətən sevgisi idi ki, 44 gün içində getdik, o qələbəyə nail olduq. Və bütün gənclərimizə bu sevgi ilə işıqlı yol, işıqlı sabahlar arzulayıram.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**
**✍ Məcid RƏŞADƏTOĞLU**
**✍ Aidə İBRAHİMOVA**

## Ümummilli Lider Heydər Əliyev Azərbaycan Respublikasında hüquqi dövlət quruculuğunun banisidir



Naxçıvan Dövlət Texniki Kollecində Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş "Ümummilli Lider Heydər Əliyev Azərbaycan Respublikasında hüquqi dövlət quruculuğunun banisidir" adlı tədbir keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan direktor Asəf Ruşanov bildirib ki, müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, Ulu Öndər Heydər Əliyevin Vətən və xalq qarşısında misilsiz xidmətləri bütün dünya azərbaycanlılarının yüksək ehtiramı ilə ölkəmizin hər yerində, o cümlədən onun hüdudlarından kənarda geniş şəkildə qeyd olunur.

Ümummilli Liderimizin ölkəyə rəhbərlik etdiyi bütün dövrlərdəki əvəzsiz xidmətlərinə nəzər salanda bir daha aydın olur ki, dahi şəxsiyyət Heydər Əliyev respublikaya rəhbərlik etdiyi vaxtlarda ölkəmizdə qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsinə nail olmuş, müstəqilliyimizə zəmin yaradan uzaqgörən və müdrik addımlar atmışdır.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi, baş ədliyyə müşaviri Faiq Səfərov çıxış edərək bildirib ki, Azərbaycanın hüquq sisteminin müxtəlif aspektlərinin, o cümlədən konstitusiya hüququn inkişafı, insan hüquqlarının müdafiəsi, Konstitusiya nəzarəti, demokratik ədalət mühakiməsi prinsiplərinə əsaslanan yeni üçpilləli məhkəmə sisteminin formalaşması, milli qanunvericiliyin təkmilləşməsi, Avropa standartlarına cavab verən yeni qanunların qəbul edilməsi prosesi Ümummilli Liderin genişmiqyaslı hüquqi islahatlarının tərkib hissəsi idi.

Kollecin tədris-tərbiyə işləri üzrə direktor müavini Tural Məmmədov çıxış edərək Ulu Öndər Heydər Əliyevin ölkəmizdə qanunçuluğun yaradılması və möhkəmləndirilməsi sahəsindəki misilsiz xidmətlərindən bəhs edib.

Sonda sənədli film nümayiş olunub.

**Xəbərlər şöbəsi**

## Naxçıvan Muxtar Respublikasına dotasiya 32,6 milyon manat azalıb

Naxçıvan Muxtar Respublikasının büdcəsinin gəlir və xərclərinin tənzimlənməsi üçün 2022-ci il dövlət büdcəsindən 425,0 milyon manat və ya proqnoza nisbətən 32,6 milyon manat (7,1 faiz) az dotasiya ayrılıb.

Bu, Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında müzakirə edilən "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrasına dair illik hesabat"da yer alıb.

Qeyd edilib ki, icmal büdcənin tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının büdcəsinin gəlirləri 606,1 milyon manat proqnoza qarşı 623,5 milyon manat (17,4 milyon manat və ya 2,9 faiz çox) olmuşdur ki, bu da 2021-ci illə müqayisədə 99,8 milyon manat və ya 19,1 faiz çoxdur. Naxçıvan Muxtar Respublikasının büdcəsinin öz gəlirləri 148,5 milyon manat proqnoza qarşı faktiki icra 198,5 milyon manat və ya 50,0 milyon manat (33,7 faiz) çox olub.

Naxçıvan Muxtar Respublikasının büdcəsinin öz gəlirləri üzrə proqnozdan artıq daxilolmalar da nəzərə alınmaqla muxtar respublikanın büdcəsinin gəlir və xərclərinin tənzimlənməsi üçün 2022-ci il dövlət büdcəsindən 425,0 milyon manat və ya proqnoza nisbətən 32,6 milyon manat (7,1 faiz) az dotasiya ayrılıb.

Naxçıvan Muxtar Respublikasının büdcəsinin xərcləri 607,6 milyon manat təşkil etmişdir ki, bu da 2021-ci illə müqayisədə 85,6 milyon manat və ya 16,4 faiz çoxdur.

**Xəbərlər şöbəsi**

## Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin saytı AzStateNet şəbəkəsinə köçürülüb

Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının internet səhifələrinin "GOV.AZ" zonasında qeydiyyatdan keçirilməsi və təhlükəsizliyinin gücləndirilməsi ilə bağlı müvafiq tədbirlər davam etdirilir. Həyata keçirilən tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin elektron informasiya resursu yeni *"nculture.gov.az"* domen adı ilə AzStateNet şəbəkəsinə köçürülüb.




Qeyd edək ki, Mədəniyyət Nazirliyinin rəsmi internet saytı Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mühəndis-proqramçıları tərəfindən müasir proqramlaşdırma dillərindən istifadə edilərək hazırlanıb.

Yenilənmiş internet səhifəsinin SSL (təhlükəsizlik) sertifikatı ilə təmin olunması, optimizasiyası (SEO-Search Engine Optimization) axtarış sistemlərinə uyğunlaşdırılması, "Google" axtarış sistemində qeydiyyatdan keçirilməsi və axtarış sistemlərində ön sıralarda tapılması üçün nazirliyin mühəndisləri tərəfindən zəruri texniki tədbirlər həyata keçirilib. Həmçinin saytın domen ünvanı da müvafiq qaydada yenilənməklə "GOV.AZ" domeninə bağlı e-poçt adresi ilə təmin ediləcəkdir.

Dizayn, quruluş və məzmun baxımından zəruri tələblərə cavab verən yeni internet səhifəsi dövlət orqanının fəaliyyətinin ayrı-ayrı istiqamətlərinin, bu sahədə olan yeniliklərin, həyata keçirilən tədbirlərin daha dolğun və operativ şəkildə ictimaiyyətə çatdırılmasını təmin edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

2023-cü il “Heydər Əliyev İli”dir

# Azərbaycana, Naxçıvana xidmət tükənməz sevgidir

## Cabbar Şıktaş: “Dəfələrlə olub ki, dahi şəxsiyyət Heydər Əliyev hansı xəbərlərin “Milliyət”də yayımlanmasının zəruri olduğunu əvvəlcədən bildirirdi...”

“Onu ictimaiyyətə geniş şəkildə tanıtmağa ehtiyac yoxdur”. Nədənsə, yazını başlayarkən ağlıma gələn ilk fikir bu oldu. Çünki onu Naxçıvanda 90-cı illərin ağır günlərini yaşamış bir çoxları tanıyır. Ümummilli Liderimiz Heydər Əliyevə və Naxçıvana olan böyük sevgisi bu tanışlığın ilk bağları idi. 1990-1993-cü illərdə Naxçıvana saysız-hesabsız səfərləri, Ulu Öndərlə dəfələrlə görüşləri, hətta Sədərək döyüşlərində iştirakı onun həyat hekayəsinin səhifələrinə unudulmaz illər kimi yazılıb. Hərbçi deyildi, ancaq hər zaman əsgərlərin əhatəsində idi, Azərbaycan vətəndaşı deyildi, amma hər bir azərbaycanlının etdiyi və ya etmək istədiyini o da edirdi. Döyüş bölgəsinə getməyi qadağan etmişdilər, amma o gedirdi. Çünki jurnalist idi, muxtar respublikanın düşdüyü mürəkkəb vəziyyəti, ermənilərin işğalçı hücumlarından, blokadanın çətinliklərindən dünya mediası onun yazdıqları ilə xəbər tuturdu. Bu fəaliyyətinə görə 97 yaşlı “Milliyət” qəzeti, bəlkə də, tarixində ilk dəfə olaraq öz əməkdaşını digər ölkənin paytaxtına deyil, onun ərazicə kiçik bir bölgəsinə – Naxçıvana müxbir təyin etməyə qərar vermişdi. Və o bu vəzifəni layiqincə yerinə yetirirdi. Əslində, bu xidmət indi də davam edir. Özü demişkən: “Azərbaycanla, Naxçıvanla bağlı gündəmin işıqlandırılması bu gün də fəaliyyətimin əsas hissəsidir, çünki bu bir sevgidir – Azərbaycana, Naxçıvana olan tükənməz sevgi”. Elə biz də bu sevginin yaşadıldığı ünvanda dahi şəxsiyyət Heydər Əliyevlə bağlı keçmiş xatirələri bir daha təzələmək istədik. Buna isə ehtiyac var. Beləliklə, müsahibimiz “Yeşil İqdır” qəzetinin sahibi və baş redaktoru Cabbar Şıktaşdır:

***– Cabbar bəy, necəsiniz?***

– Təşəkkür edirəm, sağ olun.

***– Sizi qiyabi olaraq tanıyırdım, amma Ümummilli Liderimiz Heydər Əliyevlə bağlı fəaliyyətiniz haqqında, açığını deyim ki, o qədər də məlumatlı deyildim. Bu yaxınlarda Urfullah Qurbanovla (Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin Əks-kəşfiyyat şöbəsinin keçmiş rəisi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin səlahiyyətli hərbi nümayəndəsi – S.H.) görüşümüzdə sizdən söhbət açıldı və mənə haqqınızda maraqlı məlumatlar verdi. Elə bu söhbətdən sonra sizinlə görüşməyə qərar verdim. Ümumiyyətlə, dahi şəxsiyyət Heydər Əliyevlə ilk tanışlığınız necə olmuşdu?***

– Ümummilli Liderimiz Heydər Əliyevlə ilk tanışlığımız 90-cı illərə təsadüf edir. Deməli bu tanışlıq, belə olub. Mən əsgərlikdən evə yeni qayıtmışdım. Rəhmətlik atam İqdırda “Yeşil İqdır” qəzetinə sahiblik edirdi. Mən gəldikdən sonra məsləhət gördü ki, qəzetçilik işlərini davam etdirim. Yəni bu, bir ata məsləyi idi. Mən də müxbir olaraq işə başladım. Aradan bir müddət keçdi, həm də “Milliyət” qəzetinin Qars-İqdır üzrə bölgə müxbiri olaraq fəaliyyətimi davam etdirdim. Bu arada xəbərlər gəlib çatırdı ki, Naxçıvana gediş-gəlişi asanlaşdırmaq üçün Araz çayının üzərində yeni bir körpünün tikintisinə başlanılıb. Amma keçid üçün kiçik bir körpü var idi. Qərar verdim ki, sərhədə gedim, görüm orada vəziyyət necədir. O zaman bizdə Aralıq kəndindən (o vaxt Qarsın inzibati ərazisinə aid idi) sonra maşın yolu yox idi, yəni bildiyimiz adi torpaq yol idi. Yolboyu bir neçə maşın dəyişib, sərhədə gəldim. Baxdım ki, inşaat hazırlıqları gedir, mülki işçilər də var. Bunların da başının üstündə Ufuq adlı bir jandarma zabiti var, onunla da tanış olub söhbətləşdik. Bir az keçəndən sonra gördüm hər kəsin başı qarışıb işə, bir anlığa qərar verdim ki, keçim o tərəfə, yəni Naxçıvana. Və onların gözündən yayınıb həmin o balaca körpüdən keçib arxama baxmadan piyada gəlib çıxdım Sədərək yoluna. Qarşıma çıxan bir adamdan Naxçıvana necə gedəcəyimi soruşdum



və yoldan keçən bir maşına oturub, gəlib çıxdım şəhərə. Naxçıvanda indiki Heydər Əliyev Muzeyinin qarşısındakı meydanda gördüm çoxlu adamlar var, əvvəlcə bunu mitinqə bənzətdim. Soruşdum, dedilər, bəs görkəmli siyasi xadim Heydər Əliyev məclisin yeni sədri seçilib, indi də gələnlər onunla görüşmək istəyirlər. Qəti olaraq qərar verdim ki, mən də onunla görüşməliyəm. Çətinliklə də olsa, Naxçıvan Ali Məclisinin binasına daxil oldum, gördüm dəhliz boyu xeyli adam toplaşıb. Yaxınlaşıb dedim ki, Türkiyədən gəlmişəm, müxbirəm, Ali Məclisin Sədri Heydər Əliyevlə görüşməliyəm. Açıq söyləmək lazımdırsa, görüşəcəyimi zənn etmirdim. Amma məni yuxarı mərtəbəyə apardılar, orada görüşdüyüm başqa bir adama mənim haqqımda məlumat verdilər. Hər halda bu insan səlahiyyətli bir şəxs idi. Özüm haqqında məlumat verdikdən sonra vəsiqəmə baxdı, bir-iki sual verdi və mənə bir az gözləməyimi söylədi. Görüşə biləcəyimə heç ümidim yox idi. Lakin bir azdan məni Ümummilli Liderin oturduğu otağa dəvət etdilər.

***– O ana qədər Ulu Öndəri heç görməmişdiniz, yaqin?***

– Nəinki görməmişdim, heç görsəydim belə tanımazdım. Çünki əsgərlikdən gələndən sonra, sadəcə, adını eşitmişdim. Bir də onu bilirdim ki, sovetlər kimi nəhəng bir dövlətdə, “politbüro”da ən yüksək vəzifədə işləyən türk olub. Bilirsiniz, bu, dəhşət idi. İndi öz-özümə fikirləşirəm ki, bəlkə də, bu görüşü əvvəlcədən planlaşdırsaydım, yəqin ki, alınmayacaqdı. Yəni Onun məni qəbul etməsi, həm də bu tezlikdə qəbul edib görüşməsi mənim üçün əsl möcüzə idi. İçəri keçib görüşdüm, böyüklərə hörmət əlaməti olaraq əlini öpdüm. Mənə oturmaq üçün yer göstərəndən sonra yaxından maraqlanmağa başladı. Təxminən, yarım saatdan çox söhbət etdik. Söhbətin sonunda Naxçıvana tez-tez gəlməyi, Onunla müntəzəm əlaqə saxlamağı tövsiyə etdi və bu işdə mənə lazımi dəstək göstərməyi səlahiyyətli şəxsə də tapşırdı.

***– Bəs əsas nədən danışdınız?***

– İlk olaraq, təbii ki, tanış olduq. Naxçıvana necə gəlməyimi soruşdu, ailəmlə, özümlə bağlı danışdıq. Sonra, əsasən, Naxçıvanın düşdüyü mürəkkəb vəziyyətdən, ermənilərin bu qədim Azərbaycan diyarına hücumlarından danışdı, muxtar respublikada baş verən hadisələrin Türkiyə mətbuatında işıqlandırılmasının çox böyük əhəmiyyətinin olacağını vurğuladı. İnanın, söhbət o qədər maraqlı keçdi ki, açığı, bu səmimiyyəti də gözləmirdim. Yəni indi fikirləşirəm ki, bu cür böyük bir şəxsiyyətin o qədər işinin çox olduğu bir zamanda məni qəbul edib, söhbətə vaxt ayırması inanılmaz idi. Bu qısa zaman çərçivəsində Türkiyə-Azərbaycan əlaqələrinin böyük gələcəyinin olduğunu elə inamla izah etdi ki, mən daxilən içimdə bundan sonrakı fəaliyyətimi bu istiqamətdə quracağıma söz verdim. Bilirsiniz, bu görüş 22-23 yaşlarında gənc bir jurnalist üçün əsl möcüzə idi...

***– Və bundan sonra sizin fəaliyyətinizin Naxçıvan dövrü başladı...***




– Bəli, bu görüşdən sonra Naxçıvan mövzusu mənim qəzetçilik fəaliyyətimdə ana mövzuya çevrildi. Ümummilli Lider məni Naxçıvan Müdafiə Komitəsinin sədri rəhmətlik Elman Abbasovla tanış etdi. Artıq Azərbaycanda ilk dəfə olaraq Milli Ordu quruculuğuna başlanılmışdı və bu ordunun kərpic-kərpic qurulması mənim gözlərimin qarşısında baş verirdi. Təsəvvür edin, bir tərəfdən Naxçıvan aramsız hücumlara məruz qalır, şəhidlər verir, iqtisadi vəziyyət çox ağırdır, digər tərəfdən, ordu qurulur, Türkiyə və İranla iqtisadi əlaqələr yaradılır. Yəni böyük bir prosesə şahidlik edirdim. Ancaq əsas məsələ, təbii ki, Naxçıvanın təhlükəsizliyi idi. Erməni-rus hərbi birləşmələrinin əsas məqsədi Sədərək vasitəsilə Naxçıvanı işğal etmək, əhalini buradan qaçırmaq idi. Fiziki baxımdan, hərbi qüvvələr baxımından bu, bəlkə də, mümkün idi. Amma ortada Heydər Əliyev faktoru vardı, axı bunu gözardı etmək mümkün deyildi. Mən isə həmin Sədərək döyüşlərinin canlı şahidi olan, yeganə, belə deyək ki, xarici jurnalist idim. Cəbhə bölgəsində baş verən hadisələr günbəgün “Milliyət”də işıqlandırılırdı.

Cabbar bəy “Milliyət”in müxtəlif saylarından surətini çıxardığı hissələri mənə göstərir: “Dışişleri heyeti Nahçıvanda”, “Sınıra yığınak”, “Nahçıvanda Türk şenliği”, “Milli ordudan yemin”, “Türk birlikleri yerleşti. Ermeni siper kazıyor”, “Ermenistan sınırına yığınak”, “Namlular hedefe”, “Aliyevin endişesi”, “Rus-ermeni işbirliği”, “Nahçıvanda yardım sevinci”, “Nahçıvanın bir gözü ermeni tehdidinde, bir gözü Ankara güvencesinde”, “Nahçıvan Genelkurmay Başkanı Elman Abbasov: Biz Türküz, Vatanımızı kanımızın son damlasına kadar savunuruz”, “Küçük Türkün eli tetikte”, “Nahçıvanda çifte sevinç” və adını sadalamadığımız onlarca belə məqalə Naxçıvanın ən yeni tarixində yaşananları bir-bir oxucusuna anladır.

Müsahibim həmin dövrdə muxtar respublikada baş verən hadisələrdən çoxlu misallar gətirir. Deyir ki, Müdafiə Komitəsinin sədri Elman Abbasov mənə Sədərəyə getməyə qadağa qoymuşdu. Yəni bunu təhlükəsizlik üçün edirdi. Çünki Sədərəyin ən ağır günlərində əsgərlərlə bir yerdə idik. Sədərəkdəki Mil təpəsinin ermənilərdən alınması, yaralılara yardım üçün Qarsdan tibbi heyətin Naxçıvana gəlməsi, ağır yaralıların Ərzurumdakı xəstəxanaya helikopterlə çatdırılması, Culfadakı hərbi hissədə əsgərlərin andiçmə mərasimi haqqında xəbərlər, eyni zamanda Ulu Öndər Heydər Əliyevin SSRİ müdafiə naziri Pavel Qraçovun təyinatdan dərhal sonra İrəvana getməsi haqqında fikirləri, Ermənistan prezidenti Levon Ter-Petrosyanın Türkiyənin Naxçıvana hərbi müdaxilə etməməsi üçün bəyanatlarına cavabları “Milliyət” vasitəsilə Türkiyə və dünya mediasına çatdırılırdı. Hətta dəfələrlə olub ki, Ulu Öndər hansı xəbərlərin “Milliyət”də yayımlanmasının zəruri olduğunu əvvəlcədən bildirirdi, eyni zamanda Naxçıvanla bağlı baş verən hadisələrə münasibətinin də hər kəs tərəfindən bilinməsini istəyirdi. Məsələn, MDB Silahlı Qüvvələrinin baş komandanı, general Y. Şapoşnikovun “Türkiyənin Naxçıvana müdaxiləsi Üçüncü Dünya müharibəsinə gətirib çıxarar” bəyanatı onu çox əsəbləşdirmişdi. Ertəsi gün isə “Milliyət”də dahi siyasətçi Heydər Əliyevin bu fikrə cavabı belə olmuşdur: ***“Niyə çıxmalıdır? Mən Naxçıvanın rəhbəriyəm, istəsəm İranı da, Türkiyəni də bura dəvət edə bilərəm. Burada Rusiyanın əsgəri var. Kimi qoruyur? Şapoşnikov deyəsən, elə köhnə günlərdəki kimi yaşayır...”***

(ardı var)

**Səbuhi HƏSƏNOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***
***Naxçıvan-İqdır-Naxçıvan***

---

# Universitetdə Elektronika və STEAM mərkəzi yaradılıb

*Müasir təhsildə mütəxəssis hazırlığının əsas istiqamət kimi götürüldüyü STEAM metodlarının tətbiqininin yüksək səviyyədə təşkilini təmin etmək məqsədilə Naxçıvan Dövlət Universitetində Elektronika və STEAM mərkəzi yaradılıb.*





Ali təhsil ocağının rektoru, dosent Elbrus İsayev Memarlıq və mühəndislik fakültəsində mərkəzin açılışında iştirak edib. Bildirib ki, yeni yaradılan mərkəz nəzəri və praktiki cəhətdən əhəmiyyətli olmaqla universitetdə texnopark üçün birbaşa kadr hazırlığıdır. Universitet həyatı üçün çox mühüm əhəmiyyət daşıyan mərkəzin açılışı münasibətilə bütün kollektivi təbrik edən rektor müəllim və tələbələri mərkəzin fəaliyyətindən lazımınca istifadə edib innovativ layihələrlə müsabiqə və yarışlarda təmsil olunmağı tövsiyə edib.

Fakültənin dekanı, professor Cavanşir Zeynalov qeyd edib ki, yaradılan Elektronika və STEAM mərkəzi yeni avadanlıq və qurğularla təmin olunub, bu sahədə müxtəlif nəşrlər hazırlanıb. Universitetin bu sahədə qazandığı uğurlardan danışan dekan xatırladıb ki, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən keçirilən “STEAM Azərbaycan Festivalı - 2022”, “ROBOTEX Türkiyə” və “TEKNOFEST-Azərbaycan” festivallarında iştirak edən tələbələrimiz uğurlu nəticələr əldə ediblər. Vurğulanıb ki, yeni zəruri avadanlıqlarla təmin olunub.

STEAM dərsləri zamanı tədris olunacaq mövzular barədə tədbir iştirakçılarına məlumat verilib. Qeyd olunub ki, tələbələr bu mərkəzdə biliklərini zənginləşdirəcək, öz ideyaları ilə texnoloji layihələr reallaşdıra biləcək, elmi araşdırmalar aparacaq, nəticədə, sənayeyə hazır məhsul təklif edə biləcəklər.

Sonra Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilən “Memarlıq və elektronika” adlı sərgiyə baxış olub. Tələbələrin 30-a yaxın kompozisiya, bərpa işi, yeni layihələr, kənd memarlığı, şəhərsalma, ilk dəfə olaraq 3D qrafikadan hazırlanmış memarlıq layihələri sərgidə nümayiş olunub.

Elektronika sərgisində isə asfalt örtüyünün üzərindəki yağış sularının xüsusi hopdurucular vasitəsilə özünə çəkməsi və xüsusi hazırlanmış çənlərə toplanmaqla gələcəkdə istifadə üçün toplanması, hovuzların təmizlənməsi üçün avtomatik yaradılmış qurğu, süni intellekt vasitəsilə istifadə olunan market təqdim olunan layihələr arasında daha çox diqqəti çəkib. Eyni zamanda burada mükəmməl, daha çox funksiya yerinə yetirən VEX proqramı vasitəsilə xüsusi layihələr nümayiş olunub. Məhsulların tipinə görə çeşidlənməsi, fiziki qüsurlular üçün əl ilə idarə olunan avtomobil, müasir avtomobillərdə təhlükəsizliyin qarşısını almaq üçün sensorlar vasitəsilə yoldan kənara çıxmağın qarşısını alan tətbiq, tullantı məhsullarının çeşidlənməsi və maşınlar vasitəsilə uyğun malların daşınması məhz bu texnologiyadan istifadə etməklə yaradılıb.

Qeyd edək ki, metal əsaslı robotexnika platforması olan proqramın tətbiqi daha asan, kodlaşdırma daha rahat həyata keçirilir. Bu platformadan xüsusi robot mexanizmlərinin qurulmasında istifadə etmək olar.

Sonda rektor Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilən “Memarlıq və elektronika” adlı sərgidə fəal iştirak etdiklərinə görə bir qrup tələbəni təşəkkürnamə ilə təltif edib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

2023-cü il "Heydər Əliyev İli"dir

## Ulu Öndər Azərbaycan xalqına xas olan milli-mənəvi dəyərləri daim qorumuş və onları bütün dünyaya tanıtmışdır




*Müasir Azərbaycan tarixinə nəzər saldıqda milli-mənəvi dəyərlərimizin qorunması və inkişafı prinsiplərinin banisi kimi Ulu Öndər Heydər Əliyevi görürük. Müstəqillik dövrünün təməl daşları üzərində tarixi imzası olan Ümummilli Liderimiz Azərbaycançılıq ideologiyasının əsasını qoyaraq milli-mənəvi dəyərlər sistemimizi daha da gücləndirmiş, aşınmadan xilas etmişdir. Milli-mənəvi dəyərlərimizə qayıdışın və milli oyanışın xalqımız üçün gərəkliliyini nəzərə alan, hər zaman bu məsələni diqqət mərkəzində saxlayan görkəmli dövlət xadimi Heydər Əliyev bu sahədə inqilabi addımların atılmasına zəmin yaratmışdır. Çünki dahi rəhbər milli-mənəvi dəyərlərimizi təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın – dövlət quruculuğu prosesinin mühüm atributu hesab edirdi. Mənsub olduğu xalqın tarixi keçmişinə, mənəvi irsinə və milli dəyərlər sisteminə sönməz məhəbbət duyğularıyla yanaşan Ulu Öndər deyirdi:* ***"Hər xalqın özünə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək, xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirərək, gənc nəsli daha da sağlam əhvali-ruhiyyədə, saf əxlaqi əhvali-ruhiyyədə tərbiyələndirməliyik".***

Tarix sübut etmişdir ki, xalq öz milli ruhunu, mənəvi dəyərlərini, əxlaqi keyfiyyətlərini qoruyub yaşadanda, inkişaf etdirib gələcək nəsillərə çatdıranda böyük və qüdrətli olur. Ümummilli Liderimizin siyasi fəaliyyətinin 1969-1982-ci illərini öyrəndikcə görürük ki, Ulu Öndər dilimizə, tariximizə, mədəniyyətimizə, musiqimizə, ədəbiyyatımıza məhz dövlətçilik maraqları baxımından yanaşmışdır. Onun məqsəd və məramı Azərbaycanı iqtisadi cəhətdən inkişaf etdirməklə, xalqın milli dirçəlişi, milli şüurunun oyanışı ilə müstəqil dövlətimizi yaratmaq olmuşdur. 1982-ci ildə xalqımızın dahi oğlunun SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə seçilməsi o zaman "Kremlə sancılan əzəmətli türk bayrağı" kimi dəyərləndirilirdi. Ulu Öndər həmin vəzifədə də milli maraqlara xidmət etməyi böyük məharətlə bacardı.

Ümummilli Liderimizin milli ideologiyanın ən mühüm istiqamətlərindən və komponentlərindən biri kimi qiymətləndirdiyi milli dəyərlər özü də mürəkkəb daxili struktura malikdir. Ulu Öndərimiz milli dəyərlərin üç tərkib hissəsini xüsusi qeyd edir, dil, adət-ənənə və milli mentalitetin rolunu xüsusi qiymətləndirirdi. Görkəmli dövlət xadimi deyirdi ki, milli dövlət bir tərəfdən ərazinin və iqtisadi sərvətlərin qorunmasına xidmət edirsə, digər tərəfdən də milli dəyərlərin qorunmasının və müstəqil inkişafının təmin olunması məqsədi daşıyır. ***"Bizim hamımızı birləşdirən, həmrəy edən Azərbaycançılıq ideyasıdır. Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir"***, – deyən dahi şəxsiyyət Azərbaycançılığı milli ideologiya kimi irəli sürür, mədəniyyətimizi, mənəvi dəyərləri təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın – dövlət quruculuğu prosesinin mühüm atributu kimi dəyərləndirirdi. Mənsub olduğu xalqın tarixi keçmişinə, mədəni irsinə və mənəvi dəyərlər sisteminə sönməz məhəbbət duyğuları ilə yanaşan müdrik şəxsiyyət kimi o, hələ ötən əsrin 70-ci illərində yaxşı başa düşürdü ki, aydın və dərk olunmuş milli ideologiya hər bir xalqın irəliyə doğru inkişafının yol göstərəni və bələdçisidir. Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamında deyildiyi kimi: *"Xalqımızı vahid amal ətrafında birləşdirən Azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur"*.

Milli dövlətçilik və milli-mənəvi dəyərlər sıx daxili vəhdətdədir. Yalnız milli kimliyi bəlli olan və özünü bir millət kimi dərk edən xalqın bitkin inkişaf konsepsiyası ola bilər. Ümummilli Lider nəinki bu konsepsiyanı yaratdı, həm də çox böyük ustalıqla, səbir və təmkinlə həyata keçirdi. ***"Mən fəxr edirəm ki, azərbaycanlıyam!"***, – deyən Ulu Öndər bütün həyatı boyu mənəvi-əxlaqi və dini dəyərlərimizin, adət-ənənələrimizin keşiyində durdu. Hələ keçmiş sovetlər dönəmində tariximizin qədimliyi və zənginliyinin mühüm göstəricisi olan tarixi abidə və eksponatların qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi məqsədilə Azərbaycanın bütün bölgələrində tarix-diyarşünaslıq muzeylərinin yaradılması haqqında Sərəncam imzaladı. Azərbaycan folklorunun daha dərindən araşdırılması, aşıq sənətinin inkişafı, milli mərasimlərimizin təbliği istiqamətində ciddi tədbirlər həyata keçirildi. İti fəhmi, intuisiyası ilə gələcək müstəqilliyi duyub-hiss edən görkəmli dövlət xadimi o illərdə milli-mənəvi intibah üçün möhkəm zəmin hazırlayırdı.

1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən siyasi rəhbərliyə gələn Ümummilli Lider həyata keçirdiyi dövlət quruculuğu prosesi ilə paralel surətdə milli-mənəvi quruculuq və milli-tarixi yaddaşın bərpası işlərinə başladı. Vaxtilə qadağalara məruz qalan, yasaq olunan milli və dini bayramlar, adət və mərasimlər xalqa qaytarıldı. Dahi şəxsiyyət hər il qədim milli bayramımız olan Novruzda əhali ilə bayramlaşmağa çıxır, azad və müstəqil xalqımızın Novruz sevinclərindən xüsusi zövq alırdı. Ümummilli Liderimiz bu tədbirləri təkcə Azərbaycan yox, bütün Türk dünyası miqyasında həyata keçirirdi. Ortaq türk mədəniyyəti və mənəviyyatının öyrənilib təbliğ edilməsi, keçmişdən gələcəyə ötürülməsi yönündə müstəsna xidmətlər göstərirdi. Qırğızların "Manas" eposunun 1000 illik yubileyində iştirak və çıxış edən Ulu Öndər Heydər Əliyev bütün Türk dünyası üçün əvəzedilməz müdrik bir şəxsiyyət olduğunu bir daha sübut etdi.

Dahi şəxsiyyət islamiyyətlə bağlı olan dini mərasim və adətlərin də layiqincə keçirilməsi üçün hər cür şərait yaratmışdı. 1994-cü ildə Səudiyyə Ərəbistanına rəsmi səfəri çərçivəsində müqəddəs Kəbəni ziyarət etməsi, Mirmövsüm Ağa ziyarətgahında din xadimləri və möminlərlə görüşməsi, Bibiheybət məscid kompleksinin yenidən qurulmasına xeyir-dua verməsi Ulu Öndərin dini-əxlaqi dəyərlərə sadiqliyinin, Allahını və Peyğəmbərini sevən imanlı bir insan olmasının real təsdiqi idi. Qloballaşan dünyada mənəvi dəyərlərin böyük təhlükələrlə üzləşdiyi məqamlarda xalqımızın dahi oğlu qətiyyətli bir lider kimi mövqeyini ortaya qoyurdu. Ulu Öndərin milli-mənəvi dəyərlərin qorunması ilə bağlı 2001-ci il avqustun 13-də verdiyi *"Milli-mənəvi dəyərlərin pozulması xalqımıza qarşı bağışlanmaz xəyanətdir"* bəyanatı problemə təkcə dövlət rəhbərinin yox, həm də müdrik bir el ağsaqqalının münasibəti idi. ***"Biz öz milli-mənəvi dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik"***, – deyən Ümummilli Liderin işıqlı ideyaları bu gün də yaşayır və həyata keçirilir.

Ulu Öndərin zəngin dövlətçilik ənənələrinin layiqli davamçısı olduğunu əməli addımları ilə sübuta yetirən Azərbaycan Prezidenti cənab İlham Əliyev bu gün regionda cərəyan edən proseslərin istiqamətini müəyyənləşdirən, ona təsir göstərən ciddi fenomenə çevrilmişdir. Ölkə başçısını, eyni zamanda Azərbaycanın milli-mənəvi dəyərlərinin ən qüdrətli mühafizəçisi kimi görürük. Prezident cənab İlham Əliyevin konsepsiyasına görə, milli ruhu qorumağın, inkişaf etdirməyin və yeni nəsillərə çatdırmağın ən mühüm şərti məhz milli dövlətçilikdir. Milli dövlət, ancaq ərazinin, maddi sərvətlərin deyil, həm də milli-mənəvi dəyərlərin qorunmasına xidmət edir. Dövlətçilik hisslərinə malik olmadan xalq milli dövlətini inkişaf etdirə bilməz. Elə buna görə də Prezident cənab İlham Əliyev bizim uğurlarımızın əsas şərti olaraq: ***"Müstəqil siyasət, milli maraqların qorunması, milli ləyaqət, milli qürur, milli və dini tolerantlıq"*** olduğunu söyləmişdir.

Bu gün dövlət milli dəyərlərimizin qarantına çevrilmişdir. Ölkə başçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev xalqımızın milli dəyərlərinin təbliğinə, gənclərimizin bu ruhda tərbiyə olunmasına ciddi diqqət yetirir. Bu gün Ulu Öndərin yaratdığı müasir Azərbaycan gələcəyə doğru inamla addımlayır. Ölkəmiz iqtisadi, siyasi, mədəni, sosial və digər sahələrdə böyük uğurlara imza atır. Azərbaycan mötəbər beynəlxalq tədbirlərə, idman yarışlarına, forumlara ev sahibliyi edir. Bütün regional layihələrin təşəbbüskarı və ya iştirakçısı olan Azərbaycan hər bir vətəndaşımızın gerçək mənada fəxrinə çevrilibdir.

Milli-mənəvi dəyərlərimizin yaşadılmasında, onun təbliğində geniş miqyaslı fəaliyyəti ilə ictimaiyyətimizin rəğbətini qazanan Heydər Əliyev Fondu da böyük uğurlara imza atmışdır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva tarixi-dini, mədəni abidələrin qorunmasını və bərpasını daim diqqət mərkəzində saxlayır. Onu da qeyd edək ki, mənəvi dəyərlərimizin, tolerantlıq ənənələrinin təbliğində, irsimizin tanıdılmasında, həmçinin dünyanın müxtəlif guşələrində əyani şəkildə nümayişində Heydər Əliyev Fondunun xüsusi xidmətləri vardır.

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə, Azərbaycanın möhtəşəm qələbəsi ilə nəticələnmiş 44 günlük Vətən müharibəsi həm də milli birliyə və həmrəyliyə, milli-mənəvi dəyərlərə və milli özünüdərkə söykənən Heydər Əliyev ideologiyasının alternativinin olmadığını bir daha ortaya qoydu. Bu tarixi hadisə sübut etdi ki, bu gün milli dəyərlərimiz elliklə, bütün xalq tərəfindən, dövlətin öz himayəsi altında qorunur və daha da inkişaf etdirilir. Dövlətçiliklə milliliyin birləşməsi bütün xalqların ən böyük arzusu və idealı olmuşdur. Bu gün biz müstəqil dövlətimizdə milli birlik dövrümüzü yaşayırıq ki, bunun da əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Milli birliyimizin gücü Vətən müharibəsində tarixi Zəfərimizin qazanılmasında özünü bir daha göstərdi.

*Qədim və köklü milli-mənəvi dəyərlər sisteminə malik olan Azərbaycan xalqı bu dəyərləri sədaqətlə qorumuş, əsrlərlə yaşatmış və inkişaf etdirmişdir. Milli-mənəvi dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması keçmişdə olduğu kimi, bu gün də öz aktuallığını itirməyib. Çünki milli-mənəvi dəyərlərimiz Azərbaycan xalqının formalaşmasına təsiri ilə yanaşı, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu vardır.*

**Lalə HƏSƏNLİ**
*Naxçıvan Dövlət Universitetinin Təməl tibb fənləri kafedrasının müəllimi*

## And yerim – Azərbaycan

*Naxçıvan Müəllimlər İnstitutunda 28 May – Dövlət Müstəqilliyi Günü münasibətilə "And yerim – Azərbaycan" adlı tədbir keçirilib.*

Tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi, Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canlarını qurban verən şəhidlərin xatirəsi anılıb. Sonra müstəqilliyə həsr olunmuş film nümayiş olunub.

Tədbirdə giriş sözü ilə çıxış edən institutun rektoru Azad Novruzov bildirib ki, 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ölkəmizin həyatına böyük tarixi hadisə kimi daxil oldu. Müstəqil, azad, demokratik respublika qurmaq məqsədini qarşıya qoyan Azərbaycan Xalq Cümhuriyyəti 23 aylıq fəaliyyəti dövründə xalqın milli mənlik şüurunu özünə qaytardı, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirdi.



Diqqətə çatdırılıb ki, XX əsrin sonlarında yenidən müstəqilliyinə qovuşan Azərbaycan öz suverenliyini qoruyub saxlamağı bacardı. 90-cı illərdə yenidən hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər gördü, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar etdi.

Tədbirdə Humanitar və ictimai fənlər kafedrasının müəllimi Qorxmaz Hacızadə "Ulu Öndər Heydər Əliyevin memarı olduğu müstəqil Azərbaycan – Azərbaycan Xalq Cümhuriyyətinin varisidir" mövzusunda çıxış edib. Çıxışda vurğulanıb ki, mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan, dünya birliyi tərəfindən tanınan Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində ölkəmizin beynəlxalq hüququn subyekti olması 1920-ci ilin aprel ayında bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı.

Sonra tələbələrin iştirakı ilə hazırlanan bədii hissəyə və əl işlərindən ibarət rəsm sərgisinə baxış olub.

*Naxçıvan Müəllimlər İnstitutunun mətbuat xidməti*



# Böyük Zəfərə gedən yola cığır açan qələbə

Müasir Azərbaycan müstəqil, qüdrətli, siyasi və iqtisadi baxımdan heç bir asılılığı olmayan, Cənubi Qafqaz regionunun lider dövlətidir. Bütün bunlar müharibə şəraitində olan, 1994-cü ildən bu yana atəşkəs rejimində yaşayan bir dövlət üçün böyük nailiyyətdir. Bu gün Azərbaycan hərbi-iqtisadi, siyasi qüdrəti ilə Ermənistan ilə müqayisə edilməyəcək səviyyədədir. Azərbaycanın hər cür lazımi vəsaitlərlə təmin olunmuş, çox ciddi hərbi təlim keçmiş ordusu vardır. Ermənistan "şanlı əsgərlər" simasında təqdim olunan muzdlu qoşunla çəkinmədən hərbi gücdən danışır, ordunun "qüdrətinə" "dastanlar yazır". O şanlı əsgərlər ki döyüşə getməkdən çəkinərək qaçır, özgə torpaqları üçün döyüşmək istəmədiklərini bəyan edirlər. Atəşkəsin elan olunmasından bu yana ən irimiqyaslı hərbi əməliyyat olan Aprel döyüşləri ordumuzun gücünü və onun arxasında dayanan xalq qüvvəsini bütün dünyaya nümayiş etdirdi. Daha sonra Şərur rayonunun Günnüt kəndinin və bir sıra strateji yüksəkliklərin azad olunması Azərbaycanın işğal faktı ilə heç vaxt barışmayacağını bir daha sübut etdi. Günnüt əməliyyatı həyata keçiriləndə torpaqlarımız hələ işğal altında idi. Bu əməliyyat hərbi strateji, siyasi, mənəvi və psixoloji cəhətdən həm bizlər, həm də düşmən üçün ciddi nəticələrlə yadda qaldı. Günnüt əməliyyatı hərbi cəhətdən yüksək peşəkarlığın nəticəsi idi.

Gəlin kəndin tarixinə birlikdə nəzər salaq. Günnüt kəndi Şərur rayonunun inzibati mərkəzindən 22 kilometr uzaqlıqda, Şərur düzənliyində yerləşir. Mənbələrdə kəndin keçmiş adının Günnüt Cəfərli olduğu qeyd edilir. Güman olunur ki, yaşayış məntəqəsini Cəfərli nəslinə mənsub ailələr "Günnüt" adlı yerdə salıblar. Toponimikada günnüt sözünü "çəmən, düzən", günnük sözünün təhrif forması kimi "gün vuran yer", "güzdək, son bahar yaşıllığı, payız otlağı" mənaları və monqolların tərkibində Naxçıvana gəlmiş günnüt tayfasının adı ilə də bağlayırlar. Günnüt kəndinin adını etimoloji cəhətdən yaxınlıqda yerləşən Xunut dağının adıyla bağlayanlar da vardır. Ötən əsrin 90-cı illərində Şərur rayonunun Sədərək, Günnüt, Havuş və Şahbulaq kəndləri aramsız düşmən hücumlarına məruz qalıb, 1992-ci ildə Günnüt kəndi erməni qüvvələri tərəfindən işğal edilib. Kənddəki yaşayış binaları, o cümlədən bir çox sosial obyektlər dağıdılıb, qaynar həyatın hökm sürdüyü qədim yaşayış yerimiz erməni vandalları tərəfindən xarabalığa



çevrilib. Kəndin yaşayış evləri ilə birlikdə məktəbi, tibb məntəqəsi, kitabxanası, eləcə də qəbiristanlığı və məscidi dağıdılıb, kənd camaatı rayonun digər yaşayış məntəqələrinə, əksəriyyəti isə Mahmudkəndə köçməyə məcbur olub. 2018-ci il mayın 20-dən 27-nə qədər Naxçıvan Muxtar Respublikasında Ermənistan və Azərbaycan Silahlı Qüvvələri arasında baş vermiş hərbi münaqişə nəticəsində ordumuzun çevik əks-həmlə əməliyyatı ilə Şərur rayonunun Günnüt kəndi, Ağbulaq yüksəkliyi, Qızılqaya dağı, Xunut dağı və Mehri dağı işğaldan azad olunub. Bununla da ordumuz daha əlverişli mövqelərdə möhkəmlənib, Günnüt, Ağbulaq yaşayış məntəqələri ətrafındakı yüksəkliklər, Qızılqaya dağı və Qaraqaya dağlarında yeni mövqelər ələ keçirilib. Dərələyəz mahalının Arpa kəndində və Mehridərə vadisində düşmən fəaliyyəti nəzarət altına götürülüb. Döyüşlər nəticəsində, ümumilikdə, 11 min hektarlıq ərazi azad olunub. Bu ərazinin isə 8 min hektardan artığı əkin üçün, xüsusilə dəmyə əkinçiliyi üçün yararlı ərazilərdir. Dəniz səviyyəsindən 1683 metr hündürlükdə yerləşən Qızılqaya yüksəkliyinin ən böyük strateji əhəmiyyəti isə İrəvan-Yexeqnadzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna ordumuza nəzarət etməyə imkan verməsidir. Ərazinin etibarlı müdafiəsi, bölmələrin manevr qabiliyyətinin yüksəldilməsi və təminat-təxliyə məqsədilə 50 kilometr yeni yol çəkilib, 60 kilometrdən artıq yararsız yollar bərpa edilib. Strateji əhəmiyyətli Arpaçay Su Dəryaçasının taktiki cəhətdən etibarlı mühafizəsinin təşkili üçün ətrafdakı hakim yüksəkliklərdə yeni müdafiə mövqeləri qurulub. Aclıq və səfalət içində sürünən Ermənistan hökuməti nəinki Dağlıq Qarabağı, heç Ermənistanı da təmin etmək iqtidarında deyil. İqtisadi çöküş yaşayan dövlətcik yalnızca müharibə imitasiyası edəcək gücə malikdir. Ölkəmiz baş verən hadisələrdə öz prinsipial mövqeyini ortaya qoyaraq bir daha dünyaya sübut etdi ki, Azərbaycan yenilməzdir.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev 2018-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə Bakıda keçirilən təntənəli hərbi paradda demişdir: ***"Azərbaycan Ordusu yenilməzdir, güclüdür. Azərbaycan əsgəri vətənpərvərdir, mübarizdir, qorxmazdır, cəsarətlidir, yüksək hazırlıqlıdır. Azərbaycan əsgəri Vətəninə, xalqına, dövlətinə, Ali Baş Komandanına həmişə sadiqdir. Zaman bu deyilənlərin nə qədər həqiqət olduğunu tarixdə dəfələrlə sınaqdan çıxarıb. Vətənpərvərlik ruhu ilə silahlanmış Azərbaycan əsgərinin qarşısında ən müasir silahlara sarılmış düşmən belə tab gətirə bilməz. Azərbaycan əsgəri bu keyfiyyətlərini 2016-cı ilin Aprel döyüşlərində, bu yaxınlarda Naxçıvan Muxtar Respublikasının Şərur rayonu istiqamətində də bir daha təsdiq etdi. Bu gün Azərbaycan bayrağı Talış zirvəsində, Lələtəpədə, Naxçıvanın Günnüt, Qızılqaya yüksəkliklərində əzəmətlə dalğalanır. Strateji əhəmiyyət daşıyan bu yüksəkliklərin geri qaytarılması sübut edir ki, Azərbaycan məhz Prezident İlham Əliyevin Ali Baş Komandanlığı altında öz tarixi torpaqlarını mütləq geri qaytaracaq, respublikamızın ərazi bütövlüyü təmin ediləcək, dövlət bayrağımız Şuşada, Xankəndidə, Laçında və işğal altında olan digər torpaqlarımızda da vüqarla dalğalanacaq".***

✍ **Gülcamal TAHİROVA**

## Naxçıvan Bölməsində Rəyasət Heyəti növbəti dəfə toplanıb

*AMEA Naxçıvan Bölməsinin Rəyasət Heyətinin növbəti iclası olub. İclasda Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev gündəliyə çıxarılan məsələləri iştirakçıların diqqətinə çatdırıb.*



Bölmənin elmi katibi, filologiya üzrə fəlsəfə doktoru Rəşad Zülfüqarov iclasda Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyinin "Dövlət qurumlarında mövcud vəziyyətin təhlili ilə əlaqədar keçirilən sorğuda iştirakla bağlı" məktubunun icrası, akademik İsmayıl Hacıyev AMEA Naxçıvan Bölməsində 2023-cü ilin ikinci rübündə görülmüş və rübün sonunadək yerinə yetirilməsi nəzərdə tutulan işlər barədə, Elm və təhsil şöbəsinin müdiri, aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent Orxan Bağırov "AMEA Naxçıvan Bölməsinin Biblioqrafik göstəriciləri – 2022" kitabının nəşri barədə məlumatı Rəyasət Heyətinə təqdim ediblər.

İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Ədəbiyyatşünaslıq şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımov dövri mətbuatda fəallığına görə fərmanı ilə təltif edilib. İsmayıl Hacıyev bu uğuru münasibətilə Ramiz Qasımovu təbrik edib. Bildirib ki, onun müntəzəm dərc olunan elmi-publisistik məqalələri, toxunduğu mövzular Azərbaycan ədəbi mühitinin, ədəbi prosesin tədqiqi və təbliği, habelə cəmiyyətimiz üçün aktuallıq kəsb etməsi baxımından önəm daşıyır.

Daha sonra Kadr və ümumi işlər şöbəsinin müdiri Filurə Sadıqova AMEA Naxçıvan Bölməsində vakant vəzifələrə qəbul üçün müraciət edən şəxslər barədə məlumat verib. Bölmədə yaradılmış Müsahibə Komissiyasının rəyinə əsasən müraciət edənlər uyğun vəzifələrə təyin olunublar.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

## Sosial işçilər Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyində işə cəlb olunub



Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyində Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Agentliyinin məsul şəxslərinin iştirakı ilə tədbir keçirilib.

Tədbirin əsas məqsədi Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyində texniki işlərə dəstək göstərilməsi məqsədilə işə cəlb olunan sosial işçilərin təlimatlandırılması olub. Sosial işçilərə görəcəkləri işlər barədə müvafiq istiqamətlər və tövsiyələr verilib.

Bununla yanaşı, Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Xəyalə Dadaşova tərəfindən işinə ciddi yanaşan, özünü nümunəvi işçi kimi göstərən sosial işçilərin gələcəkdə daimi işlə təmin olunacağı da bildirilib.

## Naxçıvan Muxtar Respublikasında fitosanitar və epizootik monitorinqlər gücləndirilib



Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyində iki istiqamət üzrə monitorinq qrupları yaradılıb. Fitosanitar monitorinq qrupu Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı və Ekologiya və Təbii Sərvətlər nazirliklərinin, "Naxçıvan Yaşıllaşdırma Xidməti" publik hüquqi şəxsin və rayon (şəhər) icra hakimiyyəti orqanlarının əməkdaşlarından, epizootik monitorinq qrupu isə Səhiyyə və Kənd Təsərrüfatı nazirliklərinin, Dövlət Baytarlıq Xidmətinin, o cümlədən rayon (şəhər) icra hakimiyyəti orqanlarının əməkdaşlarından təşkil edilib. Monitorinq Naxçıvan şəhəri də daxil olmaqla muxtar respublikanın rayonlarını əhatə edir. Monitorinqlər zamanı Naxçıvan Muxtar Respublikasının fitosanitar və epizootik vəziyyətini müəyyən etməklə yanaşı, bitki və bitkiçilik məhsullarının əkinlərinin qeydiyyatının aparılması, zərərli orqanizmlərin yayılma areallarının müəyyən edilməsi, heyvanların növlər üzrə sayının dəqiqləşdirilməsi və bu kimi tədbirlər də həyata keçirilir.

Sözügedən məsələlərlə bağlı nazirlikdə görüş keçirilib, işçi qruplarına əlavə tapşırıq və tövsiyələr verilib.

Qeyd edək ki, hazırda zərərli orqanizmlər aşkar edilən meşəətrafı ərazilərdə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin texnikalarından istifadə edilməklə müvafiq mübarizə tədbirlərinin həyata keçirilməsi təmin edilir.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü qeyd olunub



1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə Ümummilli Lider Heydər Əliyevin 100 illiyi ilə əlaqədar olaraq Babək Rayon İcra Hakimiyyəti Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birgə "Uşaqlar bizim gələcəyimizdir" adlı tədbir keçirib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin rayon mərkəzindəki abidəsi önünə gül qoyulub, əziz xatirəsi ehtiramla yad edilib. Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi, Ulu Öndər Heydər Əliyevin, akademik Zərifə xanım Əliyevanın və şəhidlərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsilə başlayıb. Tədbirdə Babək Rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov və Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Gününün yaranması tarixindən, tədbirin əhəmiyyətindən bəhs edib, muxtar respublikada uğurla həyata keçirilən dövlət uşaq siyasətindən, uşaqlara göstərilən hərtərəfli diqqət və qayğıdan ətraflı danışıblar. Qeyd edilib ki, ölkəmizdə uşaq problemləri hər zaman diqqət mərkəzində saxlanılıb. Ulu Öndər Heydər Əliyev uşaqların qayğısına dövlət siyasətinin əsas sahələrindən biri kimi baxırdı. Bu siyasət respublikamızda indi də davam etdirilməkdədir.

Daha sonra Babək rayonu üzrə təhsil sahəsində ən yüksək göstəriciyə nail olan Röya Babayeva şagirdlər adından göstərilən hərtərəfli qayğıya görə dövlətimizə minnətdarlığını bildirib.

Tədbirdə Babək rayonu üzrə 2022-2023-cü ilində müxtəlif sahələrdə nailiyyət qazanmış uşaqlar təşkilatçılar tərəfindən hədiyyə və fəxri fərmanla təltif ediliblər. Eyni zamanda şəhid ailələrinin uşaqlarına hədiyyə təqdim olunub.

Bədii hissə ilə davam edən tədbirin sonunda Babək Rayon Mədəniyyət Sarayının foyesində istedadlı uşaqların rəsm və əl işlərindən ibarət sərgiyə baxış olub.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Rabitə xətt təsərrüfatında yenilənmə işləri davam etdirilir



Muxtar respublikanın hər yerində olduğu kimi, Kəngərli rayonunda da rabitə xətlərinin yenilənməsi davam etdirilir. Rabitə xidmətlərinin yenilənməsi istiqamətində görülən işlər Xok kəndini də əhatə edib. Sakinlərə göstərilən rabitə xidmətlərinin keyfiyyətinin artırılması, rabitə xətlərinin texniki normalara uyğunlaşdırılması və yeni sabit telefon çəkilişlərinin aparılması məqsədilə müvafiq tədbirlər görülməkdədir. Bu məqsədlə 40 ədəd yeni dəmir dirək basdırılmaqdadır. Rabitə xətləri də texniki normalara uyğun vəziyyətə gətirilir, 2500 metrə yaxın kabel çəkilir, yararsız kabel yenilənir, paylayıcı şkaflarda və abunə qutularında zəruri texniki tədbirlər görülür.

Qeyd edək ki, cari ilin mart ayında Kəngərli rayonunda internetin sürətinin artırılması məqsədilə Naxçıvan Şəhər Mərkəzi Avtomat Telefon Stansiyası ilə Qıvraq Mərkəzi Avtomat Telefon Stansiyası arasında 2 ədəd 48 portlu (10 GB) Juniper EX2300 Ethernet Switch, 2 ədəd 80 kilometr siqnaldaşıma gücünə malik SFP (Small Form-Factor Pluggable) ötürücü modul və 2 ədəd DC-AC converter qoşulub.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***




## Azərbaycan Gimnastika Federasiyası hər il yeni uğurlara imza atır

*Ölkəmizdə bir sıra sahələrdə olduğu kimi, idman siyasətinin də günün tələbləri səviyyəsində qurulması inkişafı və müasirləşməni şərtləndirən başlıca amildir. Müstəqilliyimizin bərpasından sonra iqtisadiyyatın, turizmin, mətbuatın, səhiyyənin və bir sıra aparıcı sahələrin inkişafı ilə yanaşı, idman da qısa zamanda öz uğurları ilə istər Vətənimizə, istərsə də bu istiqamətdə fəallıq göstərən gənclərimizə başucalığı gətirdi. Bu gün də Azərbaycanda idmanın inkişafına geniş prizmadan yanaşma və bu istiqamətdə aparılan uğurlu dövlət siyasəti öz səmərəli bəhrəsini verir. Ölkədə fəaliyyət göstərən idman qurumları – Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, federasiyalar, idman cəmiyyətləri, eləcə də Azərbaycan Gimnastika Federasiyası vahid siyasət çərçivəsində ümumi işə xidmət edir. Məhz bütün bunların nəticəsidir ki, Azərbaycan dünya birliyinə idman dövləti kimi təqdim olunur.*

Bu gün ölkəmizdə idmanın bir çox növləri kimi, gimnastika sahəsi xüsusilə fərqlənir. Hər il gənclərimizin bu sahəyə olan marağı daha da artır və peşəkar idmançılar ölkəmizi uğurla təmsil edirlər. Qeyd edək ki, bədii gimnastika üzrə 39-cu Avropa çempionatında bir qrup Azərbaycan gəncinin birincilik qazanması bu uğurların bir nümunəsidir. İstedadlı gənclərimizin nailiyyətlərini alqışlayan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyət Fondunun prezidenti, Azərbaycan Gimnastika Fondunun prezidenti Mehriban xanım Əliyeva şəxsi sosial şəbəkə hesablarında da bu istiqamətdə paylaşım edib: *“Ura! Sizi təbrik edir, sizinlə fəxr edirəm! Çox möhtəşəmsiniz! Əməyinizə, qələbə əzminizə, gözəlliyinizə və zərifliyinizə görə çox sağ olun!”*



Diqqətə çatdırmaq lazımdır ki, idmanın bu istiqaməti üzrə peşəkar kadr hazırlığını Azərbaycan Gimnastika Federasiyası həyata keçirir. Qısaca həmin qurumun qazandığı uğurlara, nailiyyətlərə, bu illər ərzində ölkəmizdə göstərdiyi fəaliyyətə nəzər salaq. Əvvəla, onu qeyd etməliyik ki, ölkəmiz müstəqillik əldə etdikdən sonra federasiya 1993-cü ildə Beynəlxalq Gimnastika Federasiyasına, 1996-cı ildə isə Avropa Gimnastika İttifaqına üzv qəbul olunub. Federasiyanın 2002-ci il oktyabrın 7-də keçirilən təsis konfransında ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın federasiyanın prezidenti seçilməsi ilə təşkilat yenidən qurulub və bu sahədə böyük dönüş yarandı. Gimnastikanın bütün növləri üzrə maddi-texniki bazanın gücləndirilməsi, kadr islahatlarının aparılması sayəsində 2002-ci ildən sonra bu sahədə yüksək uğurlar qazanılıb. Azərbaycan Gimnastika Federasiyasının məqsədyönlü və səmərəli fəaliyyətinin nəticəsində uşaq, yeniyetmə və gənclərin gimnastika növləri üzrə bölmələrə axını artıb. Hazırda Azərbaycanda, təxminən, 10 minə yaxın yeniyetmə və gənc gimnastika ilə məşğul olur. Məlumat üçün bildirək ki, ilk dövrlərdə ölkəmizdə, əsasən, bədii gimnastika, akrobatika və tamblinq növləri fəaliyyət göstərib. 2013-cü ildən qadın idman gimnastikası, 2014-cü ildən isə batut və aerobika gimnastikası inkişaf etdirilib. Hazırda Azərbaycan Gimnastika Federasiyasının tərkibinə altı idman növü daxildir. Bunlara olimpiya növləri olan bədii gimnastika, qadın və kişi idman gimnastikası, batut, həmçinin tamblinq, akrobatika və aerobika kimi qeyri-olimpiya növləri aiddir. Təsadüfi deyil ki, ölkəmizdə ən yüksək nailiyyətlər bədii gimnastika sahəsi üzrə əldə olunub.

Mehriban xanım Əliyevanın Azərbaycan Gimnastika Federasiyasına rəhbər seçilməsi ölkəmiz üçün o qədər ənənəvi olmayan gimnastikanın sürətli inkişafına və populyarlaşmasına imkan verib. İlk uğurlar özünü çox gözlətməyib. Təsis konfransından cəmi bir neçə ay sonra – 2003-cü ilin avqustunda Bakıda ilk dəfə bədii gimnastika üzrə Dünya kuboku mərhələsi təşkil olunub. Həmin ilin sentyabrında isə Azərbaycanın bədii gimnastika tarixində ilk olimpiya lisenziyası əldə edilib. Lisenziyanı Budapeştdə keçirilən 26-cı dünya çempionatında ***Dinara Gimatova*** qazanıb. Sonra uğurlar bir-birini əvəz edib. 2004-cü ilin aprelində Bakıda ikinci dəfə bədii gimnastika üzrə Dünya kuboku mərhələsi təşkil edilib. Həmin il ölkəmiz Afinada keçirilən XXVIII Yay Olimpiya Oyunlarında gimnastika idman növündə ilk dəfə təmsil olunub. Bu yaşlarda ***Anna Qurbanova*** bədii gimnastika üzrə yarışlarda mübarizə aparıb. 2005-ci il Azərbaycan Gimnastika Federasiyasının tarixində xüsusilə əlamətdar il olub. Bakıda üçüncü dəfə “A” seriyasına aid bədii gimnastika üzrə Dünya kuboku keçirilib və ölkəmiz müstəqil Azərbaycanın tarixində ilk dəfə bədii gimnastika üzrə 27-ci dünya çempionatına ev sahibliyi edib. 2006-cı ildə Mehriban xanım Əliyeva yenidən Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilməsi idmanın bu növünün inkişafında və federasiyanın fəaliyyətində yeni mərhələnin başlanmasına təkan verib. Bu mərhələdə ölkəmiz gimnastika idman növü üzrə nailiyyətlər qazanmaqla yanaşı, mötəbər tədbirlərə də ev sahibliyi edib. 2007-ci ildə Bakıda ilk dəfə olaraq bədii gimnastika üzrə 23-cü Avropa çempionatı təşkil olunub. Bu çempionatda gimnastımız ***Aliyə Qarayeva*** qızıl medal qazanıb. 2007-ci il Azərbaycan Gimnastika Federasiyası üçün daha bir uğurla yadda qalıb – Gənclər və İdman Nazirliyinin müəyyən etdiyi ilin idman yekunlarına əsasən Azərbaycanın bədii gimnastika üzrə qrup hərəkətləri kollektivi ilin ən yaxşı komandası elan olunub... Bir-birinin ardınca keçirilən 25-ci, 26-cı...30-cu, 32-ci, 35-ci Avropa çempionatlarının son uğuru isə yuxarıda da qeyd etdiyimiz 39-cu Avropa çempionatında gənc idmançı xanımlarımızın qazandığı nəticə olub ki, bu da istər ölkəmizin, istərsə də federasiyanın tarixində daha bir nailiyyət kimi yaddaşlarda qalıb. Federasiyanın ən dəyərli qalibiyyəti isə, sözsüz ki, son iki İslam Həmrəyliyi Oyunlarında əldə etdiyi uğurla səciyyələnir. Belə ki, 2017-ci ildə ölkəmizdə keçirilən IV İslam Həmrəyliyi Oyunlarında idmançılarımız bədii gimnastika, kişi və qadın idman gimnastikası üzrə yarışlarda, ümumilikdə, 20 medal (9 qızıl, 7 gümüş və 4 bürünc) qazandılar. Bu, idmançılarımızın bir turnirdə əldə etdikləri medal sayına görə rekord göstəricidir. İdmançılarımız ikinci belə yüksək nəticəyə isə 2022-ci ildə qardaş Türkiyə Respublikasının Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarında 8 qızıl, 7 gümüş, 2 bürünc olmaqla, ümumilikdə, 17 medal qazanmaqla nail oldular.

Onu da diqqətə çatdırmaq lazımdır ki, federasiya paytaxt Bakı ilə yanaşı, ölkəmizin bir çox yerlərində gənclərimizi bu sahəyə cəlb etmək üçün cidd-cəhdlə çalışır. Belə ki, Azərbaycan Gimnastika Federasiyasının rəhbərliyi gimnastikanın inkişafı, kütləviliyi üçün paytaxtla yanaşı, respublikamızın müxtəlif bölgələrində də fəaliyyətini genişləndirir. İndiyə qədər federasiyanın dəstəyi ilə Sumqayıt, Naxçıvan, Şirvan, Balakən, Kürdəmir, Ağdaş, Gəncə, Xırdalan, Qusar, Göyçay və İsmayıllıda hər cür avadanlıqla təchiz olunmuş gimnastika bölmələri istifadəyə verilib. Həmçinin gimnastika yarışları təkcə Bakıda deyil, eyni zamanda Bakıətrafı qəsəbələrdə və bölgələrdə inşa olunan olimpiya idman komplekslərində də keçirilir. Məhz bu cür yarışlar yeniyetmə gimnastlara təcrübə qazandırır, onların müxtəlif beynəlxalq turnirlərdə əldə etdikləri nailiyyətlərin əsasını təşkil edir.

Bu gün qürurla deyirik ki, idmançılarımız yüksək səviyyəli beynəlxalq yarışlarda uğurla çıxış edir, Vətənimizin şöhrətini günü-gündən artırırlar. Ölkəmiz yüksək səviyyəli beynəlxalq yarışların yüksək səviyyədə təşkili və keçirilməsində mötəbər idman qurumlarının, rəsmi şəxslərin etimadını qazanıb. Respublika idman və olimpiya hərəkatının inkişafını daim diqqətdə saxlayan Azərbaycan Respublikasının Prezidenti gənc nəslin idmanla məşğul olmasını son dərəcə vacib məsələ kimi vurğulayır və bu barədə deyir: ***“İdman cəmiyyətimizin ayrılmaz hissəsidir. Mən Milli Olimpiya Komitəsinin prezidenti və ölkə Prezidenti kimi çox istəyirəm ki, Azərbaycanda idmanla məşğulolma prosesi kütləvi xarakter alsın. Artıq kütləvilik artır, ancaq istənilən səviyyədə deyildir. Hər bir vətəndaş, hər bir gənc mütləq idmanla məşğul olmalıdır. Çünki, ilk növbədə, idman sağlamlıq, sağlam həyat tərzi deməkdir”.*** Biz də bu işdə dövlətimizə uğurlar arzulayır, idmançılarımızı daha böyük tədbirlərin qalibi görməyi diləyirik.

✍ **Məcid RƏŞADƏTOĞLU**

## Uğurun astanasında

9 illik orta təhsil səviyyəsi üzrə aprelin 30-da keçirilən buraxılış imtahanlarının nəticələrinə əsasən iştirakçılar arasında Naxçıvan Qarnizonu tam orta məktəbinin şagirdi Məhəmməd Məmmədli maksimal olan 300 balı toplamaqla ən yüksək nəticə göstərib.



Haqqında söhbət açacağımız bu gənc istedad 2008-ci il may ayının 21-də Naxçıvan şəhərində doğulub. Uşaqlıqdan ən böyük arzusu futbolçu olmaq olan Məhəmməd hələ də sevimli idmanı ilə məşğuldur. Təhsildə uğur qazanan yeniyetməmiz həm də futbol sahəsində böyük nailiyyətlər əldə edib. “Futbol, adətən, ayaqla yox, başla oynanılar” deyimi, Məhəmməd üçün keçərlidir, desək, yəqin ki, yanılmarıq. Muxtar respublika daxilində keçirilən birinciliklərdə uğur qazanan 15 yaşlı yeniyetməmiz, həmçinin Bakı şəhərində təşkil olunan futbol birinciliklərində də muxtar respublikanı təmsil edib. Təhsil sahəsində isə bir çox birinciliklərdə iştirak edən Məhəmməd aşağı siniflər üzrə fənn olimpiadasında (riyaziyyat üzrə) ölkə birinciliyinin qalibi olub, muxtar respublikada təşkil olunan riyaziyyat olimpiadasında mükafatçılar sırasına düşüb.

Məhəmmədin buraxılış imtahanında bu nəticəni göstərəcəyinə ən çox inanan isə müəllimləri olub. Məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi ***Ülkər Heydərova:*** “Məktəbimiz fənn müsabiqələrində, beynəlxalq müsabiqələrdə yüksək nailiyyətlər əldə edir. Şagirdlərimiz buraxılış və qəbul imtahanlarında yüksək nəticələr qazanırlar. Ötən il qəbul imtahanında məktəbimiz 100 faiz nəticə göstərmişdi. Məhəmməd maksimal uğuru, yüksək savadı, intellekti, dərslərə davamiyyəti və məsuliyyəti ilə seçilən bir şagirdlərimizdəndir. Onu da deyim ki, məktəbimizdə bütün şagirdlərə eyni münasibət göstərilir. Bu da ali təhsil ocaqlarına keçirilən qəbulun nəticələrində özünü bürüzə verir. Tədris ili başlayan gündən 9-cu siniflər üçün ayda 3 dəfə sınaq imtahanları təşkil edirik. Bu sınaq imtahanları uşaqların uğur qazanmasında böyük rol oynayır”.

Məhəmməd digər fənlər kimi, ingilis dilini də mükəmməl səviyyədə öyrənir. Onun qısa vaxt kəsiyində bu dilə yiyələnməsi, mənimsəməsi müəllimi ***Nazilə Sadıqova***nı da sevindirir. Nazilə müəllimin fikrincə, şagirdinin uğur qazanması onun məsuliyyəti ilə əlaqədardır: “O, həmişə dərslərində yüksək nəticələr əldə edib. İstər məktəbdə keçirilən sınaq imtahanlarında, istərsə də muxtar respublikada təşkil olunan digər kursların imtahanlarında Məhəmməd öz bacarığı ilə seçilib və uğur qazanıb. Onun ingilis dilinə marağı uşaqlıqdandır. Mən onlara 6-cı sinifdən dərs deyirəm və bu dərsdə, dərsdənkənar məşğələlərdə Məhəmməd öz danışıq bacarığı, qrammatik biliyi ilə seçilib”.

Məhəmməd Məmmədli ilk olaraq onu təbrik edən hər kəsə minnətdarlıq edərək vurğuladı ki, qəlbində böyük sevinc və qürur var. Səbəbi isə təhsil aldığı məktəbin adını zirvələrə yüksəldə bilməsidir: “Təhsilim üçün əlindən gələn hər şeyi edən valideynlərim və müəllimlərimin mənə olan inamını doğrultduğum üçün qürur duyuram. Maksimal nəticə əldə etməyim təsadüfi deyil. Təhsil aldığım Naxçıvan Qarnizonu tam orta məktəbində tədris və nizam-intizam yüksək səviyyədədir. Buna görə məktəbimizin şagirdləri həm respublika, həm də beynəlxalq səviyyədə keçirilən fənn müsabiqələri və olimpiadalarında yüksək nəticələr əldə edirlər”.

Məhəmməd qarşısına bir məqsəd qoyub – yüksək nəticə əldə etmək: “Qarşıma konkret hədəf qoymuşdum. Fənn müəllimlərimiz bizi daim yüksək nəticəyə həvəsləndirirdi. Məktəbdə hər ay ən az 3 dəfə buraxılış formatında sınaq imtahanları təşkil olunur. Bəli, maksimal nəticə yığmağımda bu sınaqların çox böyük əhəmiyyəti oldu. İmtahanlarda davamlı iştirak etdikcə həm imtahan həyəcanım yox olur, həm də vaxt bölgüsünü düzgün qura bilirdim. Buna görə də maksimum nəticəni qazandım”.

Onun uğur qazanmasına ən çox sevinən isə anası ***Nuranə Əliyeva***dır: “Hər bir valideynin ən böyük arzusu övladının yüksək nailiyyətlər əldə etməsi və dövlətinə layiqli vətəndaş olmasıdır. Məhəmmədin uğur qazanmasında ən böyük rolu isə məktəbi və müəllimləri oynayıb. Onlara valideyn kimi minnətdarlığımı bildirirəm”.

Məhəmmədin dediklərindən: “Yüksək nəticə üçün gecə-gündüz ancaq oxumaq lazım deyil, əksinə, normal həyat rutini ilə də bu mümkündür. Mən həm idmanla məşğul olurdum, həm də lazım olanda istirahət və əyləncəyə də vaxt ayırırdım. Naxçıvan Qarnizonu tam orta məktəbinin müəllimlərinə sonsuz minnətdarlığımı bildirir və söz verirəm ki, təhsilimə bundan sonra da eyni ciddiyyətlə yanaşıb daha böyük uğurlarla hamını sevindirəcəyəm”.

✍ **Ceyhun MƏMMƏDOV**

## *“ƏDV geri al”* layihəsi çərçivəsində Naxçıvan sakinlərinə 157,1 min manat qaytarılıb

Naxçıvan Muxtar Respublikasında “ƏDV geri al” layihəsi çərçivəsində 2023-cü ilin yanvar-aprel aylarında istehlakçılara, ümumilikdə, 545.232 kassa çeki üzrə 157,1 min manatdan çox, cari ilin aprel ayında isə 182.721 kassa çeki üzrə 52,6 min manatdan artıq ƏDV məbləği geri qaytarılıb. Yanvar ayı ilə müqayisədə aprel ayında kassa çekləri üzrə 3,9 dəfə, qaytarılan məbləğ üzrə 2,5 dəfə artım olub.

Qeyd edək ki, hazırda nağdsız qaydada ödənilmiş ƏDV-nin 17,5 faizi, nağd qaydada ödənilmiş ƏDV-nin isə 5 faizi istehlakçılara geri qaytarılır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

### *İtmişdir*

Culfa rayonunun Ərəfsə kənd sakini Hacıyeva Şərqiyyə Zəfər qızına məxsus torpağın mülkiyyətə verilməsinə dair JN-192A nömrəli şəhadətnamə itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Zeynəddin kəndində yaşamış Məmmədova Münəvvər Mirzəli qızının adına olan JN-320A inventar nömrəli, 10308038 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, 6-cı küçə, ev 75-də qeydiyyatda olan Quliyeva Nəhayət Əkbər qızının adına olan 3649 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Culfa rayonunun Ləkətağ kənd sakini Quliyev Əbdülrəhman İsmayıl oğluna məxsus JN-19A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Türkiyə vətəndaşı Alpagu Saniyə Mehmet qızına məxsus A10-401900 seriya nömrəli şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Şərur rayon Aşağı Daşarx kənd sakini Məmmədov Eyvaz Abdulla oğluna məxsus “BC” kateqoriyalı sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Şərur rayon Çərçiboğan kəndində yaşamış Abbasov Rafiq Əli oğluna məxsus JN-617 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 350